Bayram İsgəndərli

# SÖZ YAXILARI

*(mənsur şeirlər)*

## Bəhruz dünyası

Doğulduğun da, dünyadan köçdüyün yer də qədim, ulu torpağımız – Naxçıvan. Olan-olmaz otuzca bahar ömür sürdün. Ancaq həmin otuz il neçə-neçə illərdən artıq oldu. Axı sən o qısa ömrün boyunca, vur-tut yeddicə ildə iki minə qədər əsər yaratdın. Yeddi ildə iki min əsər! Bu başagəlməz, misilsiz bir hünərdir, igidlikdir!.. Belə çıxır ki, təsəllin yalnız fırçan olub, bir də rənglərin... Yer üzündə özgə simsar olacaq nəyin vardı ki?

Axı o otuz ilin hər birisi sənə fərəh gətirməyib. Amma ağlı-qaralı o illərdən qalan mirasına bax! Hər birində bizim adətlərimiz, gələnəklərimiz, sevincimiz-kədərimiz... Dərd daha çoxdur.

«İlanlı dağ ay işığında», «Ağrı dağı», «Köhnə qala», «Əliabad kəndində darvaza», «Nuhun qəbri», «Möminə xatın türbəsi» və adi mənzərələrin belə qəmə-qüssəyə bələnib.

Məncə də əsl sənətin kökündə – ulu bir kədər uyuyur. «Qaçqınlar», «Qaçqın oğlan», «Qaçqın qız», «Yurdsuz ailə» və başqa bu kimi əsərlərin bizlərə bu gün başımıza gətirilən bəlaların, acıların tarixçəsini danışır və indi də danışmaqdadır.

Naxçıvan teatrındakı xidmətlərin də zərrəcə yaddan çıxmayıb. Səndən sonra gələnlər səni özlərinə örnək bilib, ustad sayıb... Neçə nəsil beləcə... Ey dünyadan nakam, gülü burnunda getmiş Ustad! Nə yaxşı ki, sən varmışsan, sən varsan və sən olacaqsan və indi də hamı səni rəssamlığımızın tacı sayır...

Tacsa tarix boyu nə köhnəlir, nə dəbdən, nə də qiymətdən düşür...

## Son əsər, ya ömrün əzəli...

*Xalq rəssamı Hüseyn Əliyevin xatirəsinə*

Həyatla ölüm üz-üzə dayanmışdı. Bir tərəfdə işıqlı dünya – heç bir insanın doğru-düzgün, necə varsa eləcə təsvir edə bilmədiyi, sözlə deyə bilmədiyi bir dünya vardı. O biri tərəfdəsə hələ heç kimin görmədiyi, yalnız xəyallara qonmuş haqq dünyası... Ruhlar dünyası...

Dünyagörmüş, müdrik rəssam bu işıqlı dünyanın ahəngini tutmuş, hələ üstəlik o ahəngin notlarını rənglərə çeviribən, onlara əbədi həyat vermişdi; bu əbədi həyatda dumduru axar çaylar axır, şəlalər şaqqıldayıb gedir, rəngbərəng güllər açırdı... Adama elə gəlirdi ki, bu dumduru çaylar əbədidir, heç vaxt öz axarını dayandıran deyil, şəlalələr susmayacaq, güllər solmayacaqdı...

Həyatla ölüm üz-üzəydi. Molbertin köksündə çərçivəyə salınmış kətan, kətanın üstündə müxtəlif cizgilər... O cizgilər sağdan sola, soldan sağa gedir, qıvrılıb-açılırdı. Sonra hardasa itib-batır, yenidən qumsalda itən çaylar kimi hardasa üzə çıxırdı. Əyri-üyrü, dolanbaclı...

Həyatla ölüm üz-üzə dayanmışdı. İxtiyar rəssam palitrada rəngləri bir-biriylə qarışdırır, sanki neçə illərin küsülülərini barışdırırdı. İstədiyi rəngi axtarır... amma tapa bilmirdi... Axır ki, tapdı. Fırçanı rənglə doydurub kətana toxundurdu... Bu da yeni əsərin əzəl yaxısı!

Fırça hələ kətandan qopmayıb. Olsa-olsa nöqtə qoyulub. Ürəyinin son döyüntülərini açıq-aydın özü də eşidir... ilahi, olmaya bu sonmu, yainki başlanğıc? Bunu hələ Yer üzündə heç kəs bilməyib, bundan sonra bəlkə də heç kəs bilən deyil...

◆